Ədalət.-2019.-8 may.-S.5.



# Bakıdan Trabzona könül yolu

## Təəssürat anlamlı yol qeydləri

*Əbülfət MƏDƏTOĞLU*

**Həmin gün Bakıdan üzü Türkiyəyə istiqamət götürən "Metro" şirkətinə məxsus avtobusda sərnişinlər yerlərini tutandan sonra mən oturacağın önündəki ekrana diqqət yetirdim. Onun düymələrinə nə qədər toxunsam da çalışmadı. Sonra qulaqcığı axtardım, onu da tapa bilmədim. Bu uzaq yolun necə çətin olacağını artıq hiss etməyə başladım. Adətən belə yolçuluğa çıxanda içimdə bir rahatlıq olur. Yəni xidmətlərindən istifadə etdiyim "Starok", "Lüks İstanbul" və "Alpər" şirkətlərinin avtobusları öz yüksək xidmətlərilə sərnişinlərə yardımçı olurlar. Yəni avtobusdakı internet şəbəkəsi, həmçinin su, çay, kofe, meyvə şirələri təklif edilir. Yolçular da monitorlardan istifadə etməklə yolboyu filmlər, musiqili kliplər, idman oyunları və s. ilə başlarını qatır, özlərini əyləndirir, yolun yorğunluğunu nisbətən unudurlar. Çox təəssüf ki, bu dəfə sərnişini olduğum "Metro"da internet və monitorla bağlı ağır bir sıxıntı yaşadım. Demək olar ki, bu avtobusda mobil telefonların batareyalarının enerji ilə təmin edilməsi üçün quraşdırılmış cihazlar da çox bərbad işləyirdi. Nə isə...**

Bəli, aprelin 30-u saat 10:45-də Bakı Beynəlxalq Avtovağzalından səfərimiz başlayır. Təəssüratımın bir az əsəb üstündə köklənməsi təbii ki, öz işini görmüşdü. Ona görə də çiyinlərimdən daş asılmış bir adam kimi hiss edirdim özümü. Nə qədər çalışsam da həmin o psixoz vəziyyətimdən çıxa bilmirdim. Üstəlik də "Azersell"in birbirinin ardınca mənasız mesajlar göndərməsi lap məni özümdən çıxarırdı. Bu barədə onsuz da hamı desə də, yazsa da, "Azersell" öz ampulasında qalmaqdadı. Amma düşünürəm ki, nə vaxtsa bu telefon öz işində bir dəyişiklik edəcək. Reklam arzu etməyən, hansısa alış-verişlə maraqlanmayan abonentini rahatsız etməyəcək. Və yenə nə isə...

Bəli, yol boyu Azərbaycanın avtobusun pəncərəsindən görə bildiyim mənzərələrini seyr edirəm. Hava durumu elə avtobusun içərisində olduğu kimi bir az anormaldı, gah yağış yağır, gah da gün çıxır. Bu səbəbdən sürücü də deyəsən bir az gərgindi. Yolun durumuna uyğun olaraq sürət seçməyə çalışır.

Mən də özümü şəraitə uyğunlaşdırmaq üçün mobil telefonun yaddaşına köçürdüyüm musiqilər yazılmış səhifəni açıram. Budur, Məhəbbət Kazımovun dinləməkdən doymadığım "Dağlar" mahnısı.

### *Məhəbbət oxuyur,*

mən də ona qoşulub elatın keçdiyi yollarla dağlara qalxıram. Əlimdən alınmış yurdumu, kəndimi, Qarabağımı bir kino lenti kimi gözlərimin önündən keçirirəm. Və görürəm ki, 30 aprel 2019-cu ilin hava durumu iç dünyamın, xatirələrimin hava durumuyla heç cür üst-üstə düşmür. Və unudulmaz Qədir Rüstəmovun "Sona bülbüllər"i də bu yerdə köməyimə çatmır. Özümdən asılı olmayaraq, dilimdən bir söz çıxır:

- Neyçün gəlməz!

Bəli, doğurdan da o günlər neyçün gəlmir? Bir anlıq da olsa niyə məni qoynuna almır o günlər? Uşaqlığımı, gəncliyimi, dünənimi, bir sözlə, özümü normal insan saydığım o illərimi niyə qaytarmır mənə? Bu suallardan sonra elə bil ki, dəlilik etdiyimə, yersiz kimlərisə ittiham ünvanına çevirməyimə daxilən bir utanc yaşadım. Axı dünəni qaytarmağa heç kimin gücü çatmır. Onda heç kimin gücü çatmayanı niyə kimdənsə istəməliyəm?!

Bu da Azərbaycanın Gürcüstanla üz-üzə dayandığı sərhəd... bu da keçid məntəqəsi... bu da Qırmızı körpü... bu da sərhədçilərimiz... bu da gömrükçülərimiz... Burada ilk dəfə olaraq növbə çəkən polislə də qarşılaşıram. Demək, üç xidmətin əməkdaşları bizi sərhəddə qarşılayıb yola salır. Yolçular arasından iki gənc sərhəddi keçə bilmir. Sənədlərində problem olduğundan onlara geri dönmək tövsiyə olunur...

### *Bu da Gürcüstan...*

bu da onların keçid məntəqəsi. Tam səmimi deyəcəm. Burada çalışanlardan həmişə mənfi enerji alıram.

Səbəbinin nə olduğunu bilməsəm də, amma hiss edirəm ki, burdakılar robortlaşmış məmurlardı. Danışıqları da, sualları da, hətta təqdim etdiyi vəsiqəni qəbul etmələri də qupquru hissiyyatsızdı. Amma nə edə bilərəm ki? Mən durub onlara nə isə öyrətmək səlahiyyətində deyiləm. Ona görə də sakitcə vəsiqəmi təqdim edirəm. Şüşənin arxasında oturmuş xanım məmur da heç nə ifadə etməyən gözlərilə üzümə baxır, sonra da vəsiqədəki şəkilə nəzər yetirir. Əsəbi şəkildə vəsiqəyə möhür vurur və mənə uzadır. Mən də etik normalara riayət edərək səs tembrimi bir pillə qaldırıb doğma ana dilimdə "sağ ol" deyib keçirəm. Yol yoldaşlarım arasında bir az ləngiyənlər olsa da, mənim işim daha asandı. Ona görə ki, kiçik əl çantam və bir də balaca çemodanımı rahatca daşımaq mümkündü. Yoxlanış zamanı da təqdim etdiyim bu əşyalar heç bir problem yaratmır...



Avtobusda hamı yerini tutur. Sərnişinlərə xidmət edən xanım qız uca səslə bildirir ki, qarşıda 20 dəqiqəlik fasilə olacaq.

Hər kəs yemək, çay və digər istəklərini gerçəkləşdirə bilər. Mən dəfələrlə bu yolu getdiyimdən harda, hansı xəbərdarlığın ediləcəyini öncədən bildiyimdən sakitcə yol üçün evdən tədarük olunmuş azuqəni əl çantamdan çıxarıram...

Bu da Bakıdan Türkiyəyə işləyən avtobusların duracaq yeri. Çalışanlar, xidmət edənlər daha çox türk soyludular.Verilən yeməklərin də çeşidi daha çox türklərə aiddir. Hava günəşli olduğundan masaların birində əyləşib "kasıbın olanından" dadıb bir stəkan da ayran içirəm. Amma hiss edirəm ki, hamı monitorların internet xidmətinin bərbadlığını müzakirə edir. Deməli, sərhəddi keçsək də, adamlar Bakıda yol verilmiş bu nöqsanı hələ də unutmayıblar.

Açığını deyim ki, qarşıdan gələn gecənin ağırlığı mənə bu nöqsanın ağırlığını bir az da artıq yaşadır. Çünki avtobusda, maşında gecə səyahətləri zamanı yuxulamaq, yatmaq kimi anlayışlar mənə yaddır. Gecənin qaranlığında isə ətrafı seyr etmək mümkün olmur.

Monitor çalışanda başımı verilişlərlə, filmlərlə, musiqilərlə qatıram və səhərin necə açıldığını hiss etmirəm. Bu dəfə isə əməlli-başlı məşəqqət yaşayacağım mənə məlumdur. Görünür, atalar sözünə əməl etməməyin ağrısını yaşamaq mənim haqqım imiş. Axı atalar deyib ki, "xasiyyətini bilmədiyin ata minmə".

Mən isə bu fikrə əməl etməmişdim. Ona görə də Balaş kimi öz cəzamı çəkməyə məhkumam...

Avtobusun mühərriki işə salınır. Sərnişinlər öz yerlərini tuturlar. Adamların ovqatı, xüsusilə siqaret çəkənlərin əhvalı bir az düzəlib. Çünki maddi tələbat ödənilib - kimsə yemək yeyib, kimsə də siqaretini çəkib. Mən də bu fürsətdə iki ədəd siqaretin külünü "yerə" çırpdım. Hələ ki, maşının içərisində qəzet, kitab oxumaq mümkündü. Səhər-səhər avtovağzaldan aldığım qəzetləri gözdən keçirirəm. Onsuz da bir dəfə hamısına baxmışdım. İndi də başımı qatmaq üçün təkrar baxıram. "Ədalət" qəzetinin 30 aprel sayında dəyərli dostum Şirxan Adıgözəlovla bağlı yazdığım yazını bir də oxuyuram. Hiss edirəm ki, o yazı bitməyib... o yazı mənim ömrüm boyu yazılacaq bir yazıdı...

### *İçimdən bir dua keçirirəm*

Düşünürəm ki, bu yol boyu o mənimlə olacaq, onunla danışacam, onunla birlikdə keçirdiyim zaman kəsiyini gözlərimin önündə canlandıracam və Şirxan bu gecə uzanan bu yolda məni tək qoymayacaq.

Avtobus Tiflis şəhərinin artıq işıqları sayrışan və Kür çayının sol sahili boyunca keçən küçəsiylə hərəkət edir. Şəhərdə əməlli-başlı sıxlıqdı. Sanki bütün Tiflis küçələrə çıxıb. Maşınlar, adamlar bir-birinə qarışıbdı. Belə bir vəziyyətdən "Metro"nun sürücüsü deyəsən bir az narahat olub. Özü üçün dinlədiyi maqnitofonun səs tempini aşağı salır.

Hə, burda onu deyim ki, uzaq məsafələrə hərəkət edən tır və avtobusların sürücülərinin nələrdən keçdiyini belə məqamlarda adam daha yaxşı anlayır.

Və mən maşın idarə etməyi bacardığımdan yerli sürücülərin kənardan gələn avtomobillərə qarşı saygısızlıq göstərdiyini də burada müşahidə edirəm.

Açıqca görünür ki, torpaq sahibi olan sürücülər sükan arxasında daha sərbəst və özlərini daha güvənli hiss edirlər. Xüsusilə sükanı sağ tərəfdə olan avtomobilin sürücüləri daha kobuddular...

**Hə, axır ki, Tiflisdən çıxırıq. Mən qarşımdakı açılıb qatlanan masanın üstünə qoyduğum bloknotumu götürürəm. Burdan bu yana nələr yazacağımı, nələri içimə, yaddaşıma köçürəcəyimi qeyd etməyə başlayıram. Yəni bu səfərimin təəssüratını oxucularla bölüşəcəyimə qərarlı olduğuma görə, müəyyən detalları bloknotda qeyd edirəm.**

